***Gülpəri Ramin qızı Əhmədova***
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu,*
*“Etnoarxeologiya” şöbəsi*
E-mail: gulperi_akhmedova@mail.ru

# ANTROPOMORF OBRAZLAR –AZƏRBAYCANIN QƏDİM DÖVR SAKİNLƏRİNİN DİNİ-İDEOLOJİ BAXIŞLARININ ÖYRƏNİLMƏSİNDƏ MƏNBƏ KİMİ

**Açar sözlər**: Dini dünyagörüş, dəfn adətləri, antropomorf obraz, daş heykəllər, qayaüstü təsvirlər

**Ключевые слова:** Религиозные мировоззрение, погребальные обряды, антропоморфный образ, наскальные изображения

**Key words**: Religious ideas, burial habits, anthropomorphic images, rock paintings

Arxeoloji qazıntılar zamanı Azərbaycan ərazisində qədim dövrlərdə əkinçilik və maldarlıqla məşğul olan tayfaların mədəniyyəti, incəsənəti, dünyagörüşü barədə zəngin məlumatlar verən nadir antropomorf əsərlər əldə edilmişdir. Azərbaycanın qədim sakinlərinin antropomorf fiqurlar sahəsində sənətkarlığı öz mənşəyinə görə bir çox tarixi, bədii yaradıcılıq ənənələri ilə bağlıdır ki, bunların da kökləri mezolit dövrünə aid Qobustan təsvirlərinə gedib çıxır.

Ona görə də tədqiqatçılar mezolit dövrünü təsviri sənətimizin ilkin və ən qədim mərhələsi hesab edirlər. Daha doğrusu, Qobustan qaya təsvirləri bu sahədə ilk nümunələr sayıla bilər. Abşeron qaya təsvirlərində yaradılmış qabartmalar isə ilk antropomorf təsvirlərdəndir [1]. Bu əsərlər getdikcə plastika sənətimizin kökünə, qabarıq heykəllərin inkişafına və Abşeronda da daş heykəllərin yaradılmasına təkan vermişdir. Əsasən antropomorf və zoomorf təsvirlərdən ibarət nümunələrin sayca azlığına baxmayaraq, onlar həm heykəllərin tarixinin müəyyənləşdirilməsinə, həm də hazırlanma texnologiyasının, üslub xüsusiyyətlətlərinin, ikonoqrafik cizgilərinin öyrənilməsinə imkan vermir.

Yaxın Şərq ölkələrinin ərazilərindən tapılmış anoloji materialların müqayisəli təhlili sübut edir ki, Azərbaycanın eneolit və tunc dövrü əhalisi qədim Şərq incəsənəti ilə tanış olmuşlar. İncəsənətimizin başqa bir kökü türk xalqlarının bədii təfəkkürü, yaradıcılıq tendensiyaları və dini təsəvvürləri ilə bağlı olmuşdur. Eramızın birinci əsrinə aid olan Şamaxı rayonundan tapılmış kişi heykəlləri və Tovuz rayonundan tapılmış bolluq, artım ilahəsinin fiquru plastika sənətimizin ilk əsərlərindəndir [2].

Arxeoloqlar ən qədim antropomorf rəsm nümunələrinə daş və qayalar üzərində rast gəlirlər. Elmi təqiqatlar göstərmişdir ki, qədim dövrlərdə ölkəmizdə daşdan insan, heyvan fiqurları düzəltmək, onların üzərini bəzəmək məhz bu məqsədlə edilmişdir. İnsan fiqurunu təsvir edən heykəllər içərisində 1971-ci ildə Ağdamın Boyəhmədli kəndi yaxınlığında Gavur-Qala adlanan yerdən tapılmış artefaktlar xüsusilə maraqlıdır. Demək olar ki, insan fiqurlarını təsvir edən bu heykəllər indiyə qədər Azərbaycan ərazisində tapılan orijinal sənət nümunələridir.

İbtidai insanlar daş alətlər vasitəsilə özlərinə yemək əldə etmiş, ondan müxtəlif əşyalar düzəltmişlər. İbtidai insanların ilk yaşayış məskənləri də məhz daş mağaralar olmuşdur. Heç təsadüfi deyildir ki,arxeoloqlar ən qədim rəsm nümunələrinə daş və qayalar üzərində rast gəlirlər. Elə buna görə də xalqımız uzaq keçmişlərdən tutmuş bu günədək daşı həmişə müqəddəs saymışdır. Alimlərimizin fikrincə, Azərbaycan ərazisində ilahiləşdirilmiş təbii obyektlərdən ən qədimi daş olmuşdur. Dağa, qayaya, mağaralara sitayiş, daşdan müalicə vasitəsi kimi istifadə etmək Azərbaycanda geniş surətdə yayılmışdı. Elmi araşdırmalar göstərmişdir ki, uzaq keçmişlərdə ölkəmizdə daşdan insan, heyvan fiqurları düzəltmək, onların üzərini bəzəmək məhz bu məqsədlə edilmişdir.Yurdumuzda daşdan düzəldilmiş və üstü bəzədilmiş daş abidələrin tarixi uzaq keçmişlərə təsadüf edir. Oyma, yonma, cızma, qabartma üsulu ilə daş

üzərində həkk olunmuş təsvirlərinən qədim nümunələrinə hələlik alimlərimiz Ordubad (Gəmiqaya), Abşeron (Mərdəkan, Şüvəlan kəndlərində) və Bakı şəhərindən 60 kilometr cənubda Xəzər dənizinin sahilindən bir qədər aralı Qobustan qayaları üzərində rast gəlmişlər [1]. Daşı oyma, yonma, cızma üsulu ilə bəzəməkdən Azərbaycanda orta əsrlərdə də geniş istifadə etmişdilər. Qazıntılar zamanı əldə edilən tapıntılar göstərir ki, orta əsrlərdə daş üzərində oyma, yonma, cızma üsulu ilə bəzək açmaq və ya fiqur həkk etməklə bərabər, xalq ustaları daşdan müxtəlif məzmunlu heykəllər də düzəldirdilər. Orta əsrlərə aid edilən plastik sənət nümunələrimiz içərisində daş insan fiqurları əsas yer tutur. Şamaxının Dərə-Xınıslı və Dağkolanlı kəndləri yaxınlığından tapılmış heykəllər üslub etibarı ilə bir-birinəbənzəsə də, ayrı-ayrı vəziyyətdə və ölçüdə düzəldilmiş müxtəlif tipli kişi fiqurlarını əks etdirir.

Şamaxıdan tapılmış fiqurların ən böyüyünün hündürlüyü 2,23 metr, ən kiçiyinin isə 1,35 metrdir. Heykəllər bir-birindən təxminən 200 m aralı tapılmışdır. 1946-cı ildə Dərə Xınıslı kəndindən tapılmış heykəl dikinə basdırılmış halda idisə, ikinci heykəl daş qutu qəbirlərinin birinin üstünü örtürdü. Birinci daş heykəl yerli əhəng daşından yonulub düzəldilmiş bu heykəl uca boylu naməlum bir şəxsi təsvir edir. Bəhs etdiyimiz fiqur bu ərazidə aşkar edilmiş başqa heykəllər kimi başsızdır. Baş yerinin formasından məlum olur ki, fiqurun başı sonralar hansı səbəbə görə isə sındırılmışdır. Fiqurun əllərinin vəziyyəti də bu ərazidə tapılan əksər heykəllərdə olduğu kimidir. Onların əksəriyyətində sol əl ürək, sağ əl isə bel tərəfdə təsvir edilmişdir. Fiqurun bədənində geyim olduğunu bildirən xətlərin izləri aydın görünür. Kürəyinin yuxarı hissəsində bu ərazidən tapılan o biri heykəllərdə olduğu kimi dalğavari xətlər vardır ki, bu da təsvir olunan şəxsin uzun saç saxladığını göstərir. İkinci heykəlin mühafizə edilmiş hissəsinin hündürlüyü 1,35 m-dir. 3,5 sm hündürlüyündə olan kürsü hissəsi nahamvardır və heykəlin dayağı olmadan dik durmasına imkan yaratmır. Buna görə də ehtimal etmək olar ki, heykəlin kürsü hissəsini yerə basdırmışlar. Heykəlin ən enli yeri 0,5 m, belinin eni 0, 35 m-dir. Onun qıçları qısa və kobuddur. Birinci heykəlin ancaq baş və boyunu, sonuncunun döşdən yuxarı hissəsi catmır. Beləliklə, sonuncunun qollarının vəziyyəti məlum deyildir. Hər iki heykəli diqqətlə nəzərdən kecirdikdə, bunların həm boyca və həm də formaca az fərqləndiyi gözə carpır. Xınılslıdan tapılmış birinci daş heykəlin dini əhəmiyyət kəsb etdiyi və büt oldugu inandırıcı dəlillərlə sübüt edilmişdir.Güman etmək lazımdır ki, ikinci daş heykəl də eyni məqsəd daşımışdır. Onların dövrünə gəldikdə isə birinci daş heykəlin təxminən e.ə.I –e.I əsrlərinə aid olduğu qeyd edilmişdir. İnsan fiqurunu təsvir edən heykəllər içərisində 1973-cü ildə Ağdam rayonunun Boyəhmədli kəndiyaxınlığından tapılmış abidələr xüsusilə diqqəti cəlb edir.

Mənbələr göstərir ki,türkdilli xalqlar islam dinini qəbul etməmişdən qabaq hər bir igidin məzarı üstə insan fiqurlu heykəllər qoyarmışlar. İlk orta əsrlərə aid çin, ərəb, Orta Asiya mənbələrində bu tipli heykəllərin müqəddəs sayıldığı və onlara sitayiş edildiyi qeyd olunur [3, 45-46]. VII əsrdə yaşamış alban tarixçisi Moisey Kalankatuklu "Aqvan tarixi" əsərində Azərbaycan ərazisində yaşayan tayfaların daşdan antropomorf heykəllər yonub sitayiş etdiklərini, onların şərəfinə hətta at, qoç, sığır qurban verdiklərini xüsusi qeyd edir. Tovuz şəhərindən bir xeyli aralı Qəribli kəndi yaxınlığından tapılmış heykəl çox böyük deyildir. Ağ qumdaşdan yonulmuş bu heykəl baş, bədən və ayaqları ilə birlikdə 83 sm-dir. Fiqurun ağzı, çənəsi, gözləri, qulaqları və burnu çox simmetrik şəkildə yonulmuş, başına isə 28 sm hündürlükdə konusvari papaq qoyulmuşdur. Stil baxımdan bu fiqur Qazaxıstanda və Semireçyedə tapılmış heykəlləri xatırladır. Lakin onlardan nisbətən dəqiq işlənməsi ilə fərqlənir.

Azərbaycan ərazisində olan ibtidai cəmiyyətlərində də madərşahlıq mövcud idi. Qadının rəmzi adı bütün qəbilə icması üçün əsasa çevrilirdi [4, 38]. Qadın ayrı bir yerdə, müstəqil və təkbaşına qala bilərdi, kişilər üçün isə xüsusi yaşayış yerləri tikilirdi. Qadınların hökmranlığı hədsiz idi, onlar icma

üzvlərinin yaşayışına böyük təsir göstərirdilər. Tarixin bu dövrünü öyrənən tədqiqatçılar qeyd edirdilər ki, madərşah dövründə dini sistemin özü belə təbiətin səcdəsi əsnasında qurulurdu. Burada təbiətin ayrı-ayrı qüvvələri və elementləri qadın cildində çıxış edir, ruhlar isə qadın adları daşıyır. Özü də matrearxat ideologiyası və mifologiyasının elementləri, bir qədər dəyişikliklər edilməsi şərtilə patriarxat dövründə də, sinifli cəmiyyətdə də yaşayıb [4].

Bakının yaxınlığında, Qobustan ərazisində indiyə qədər ən qədim dövrə aid olan abidələr kompleksi mövcuddur. Nəhəng daş qayalar – Böyükdaş, Kiçikdaş, Cingirdağ üzərində minlərlə qayaüstü lövhələr qədim insanların həyatı, məişəti və əməyi təsvir edilir. Bu lövhələrdə rəngarəng süjetlər göstərilir: ov, əmək fəaliyyəti, yallı rəqsi zamanı oynayan insanlar, qadın və kişi obrazları. Qobustanda cəmisi 6 min qayaüstü lövhələr və daş dövründən qalma ibtidai insanın sakin olduğu 10 yer aşkar edilib. Azərbaycanın qədim tarixi və sənətinin qiymətli mənbəyi olan Qobustan, öz qayaüstü rəsmlərinin zənginliyi vasitəsilə yeri və rolunu aşkar etməyə imkan yaradır. Antropomorf obraz baxımından böyük miqdarda tapılan qadın qrafik rəsmləri (fas, profil, oturaq və ayaqüstü vəziyyətlərdə) müəyyən maraq doğurur. Bəzi qadınlarda çiynindən çəpinə ox və kaman asılıb. Demək olar ki, bütün rəsmlərdə qadınların böyük döşü, nazik beli, enli budları və qalın ayaqları var. Bu rəsmlər erkən mezolit dövrünə aiddir, hansı ki, o zaman qəbilə başçısı ana olub. Azərbaycanda madərhaşlığın təsdiqini biz, arxeoloqlar tərəfindən Qobustanda, Qarğalar təpəsində və digər ərazilərdə mezolit, neolit və eneolit dövrünə aid yaşayış yerlərində tapılan çoxsaylı qadın heykəlçiklərində görürük. Əlbəttə ki, bu tapıntılar Yaxın Şərq ölkələrində aşkar edilmiş «paleolit Veneraları» ilə birbaşa paralel təşkli edir [5, 96].

Kur-Araz mədəniyyətinin genezisi, onun son eneolit mədəniyyəti ilə bağlılığı, Azərbaycan ərazisində qədim tayfaların mədəni-tarixi inkişaf yolunu, heyvan qüvvəsinə əsaslanan əkinçiliyin, suvarma sisteminin, metalişləmə, dulusçuluq, toxuculuq və digər sənət sahələrinin inkişafı, izafi məhsulun əldə edilməsi, ictimai təbəqələşmənin əmələ gəlməsi, cəmiyyətin fəaliyyət sahələrində kişinin rolunun artması kimi proseslərini öyrənməyə imkan verir. Kişi statusunun möhkəmləndirilməsinin təsdiqini biz, kişi heykəllərinin yaranmasında görürük. Bu yolla patriarxal münasibətlər meydana gəldi. Qobustan kompleksində tapılan qadın rəsmlərinin sırasında bir necəsi daha təsirli və mənalıdır. Bu rəsmlər – «Ana-zağa» mağarasının qarşısındakı qadın təsviri, «Yeddi gözəl» mağarasında olan qadın şəkilləridir. Qeyd edilən kompozisiyalar Böyükdaş dağının artırmasında həkk olunub. 29 №-li daşın üzərində, mağaranın girəcəyində, sol tərəfində 77 təsviri oyulub. Onlardan 24 çılpaq qadın təsviridir.

Ümumiyyətlə, qadın rəsmlərinin çox olması mağaranın adlandırılmasına da səbəb olmuşdur: «Ana zağa». Bir çox fiqurların əlində kaman olması qadınların silahdan istifadə etmək, ovda iştirak etmək bacarığından xəbər verir. «Ana-zağa» mağarasının qərbində yerləşən nəhəng daşın üzərində 9 təsvir tapılmışdır, onlardan 8-i qadın təsviridir. Dörd qadın təsviri öküzün önündə yerləşir. Qadınlar ayaq üstə, qabaqdan görünüş şəklində -anfas təsvir edilir, təsvirlərin ölçüsü 62-90 sm qədərdir. Bir çox fiqurların belində üfüqi xəttlər şəklində bəzəmələr var, ola bilsin ki, bu bədənlərində döyülmüş təsvirdir.

Təsvirlərdə qadınlar beli nazik, budları böyük həcmli, dizlərə yaxın daralmış vəziyyətdə, hər iki ayağın baldırları bir-birinə sıxılıb, ayaq pəncələri göstərilməyən halda verilmişdir. Bütün qədim lövhələrdə olduğu kimi, Qobustandakı qadın təsvirlərində də əllər göstərilməmişdir. Ümumi təsvirdə yeddi lövhənin bütün üzlərində bənzər təsvirlər var. Ona görə də bu məskən yeri «Yeddi gözəl» adlandırılıb.

Arxeoloji tədqiqatlar zamanı Naxçıvan ərazisinin də qeyd olunan materiallarla zəngin olduğu sübuta yetirilmişdir. O.H.Həbibullayevin qazıntıları zamanı Kür-Araz mədəniyyətinə aid müxtəlif fiqurları və sitayiş əşyaları tapılmışdır. O.H.Həbibullayev ilk tunc dövrünün son mərhələsinə aid gil qablardan birinin üzərində stilizə olunmuş in-

san rəsminin olduğu haqqında məlumat vermişdir. Eyni zamanda tədqiqatçı orta tunc dövrünün boyalı qablarını mənəvi mədəniyyətin bir sahəsi kimi xarakterizə etmiş, boyalı qablar üzərindəki həndəsi motivlərin, fauna və flova ilə müəyyən kompozisiyada verilmiş təsvirlərin, şübhəsiz ki, müəyyən bir semantikası olduğunu qeyd etmişdir [6]. O.H.Həbibullayevin bu araşdırmaları Naxçıvanda yaşayan tunc dövrü tayfaları arasında dini mifoloji baxışların formalaşdığını aydın şəkildə göstərir. Naxçıvanda yaşayan tayfaların dünya baxışı Gəmiqaya təsvirlərində daha aydın əks olunmuşdur.

Gəmiqaya rəsmləri qədim insanların dini, ideoloji, mifoloji, siyasi görüşlərini əks etdirən sinkretik bir mədəniyyət abidəsidir. Ona görə də abidənin tədqiqi arxeologiya ilə yanaşı folklor, mifologiya, etnoqrafiya ilə bağlı elmi biliklərin birləşdirilməsini tələb edir [7].

Gəmiqaya rəsmlərinin mahiyyəti insanların dini dünyabaxışının müəyyən formada, antropomorf və zoomorf obrazlarla verilməsidir. Bu rəsmləri mifoloji anlam kimi qəbul etmədən, bu kodların quruluşunu və hansı informasiyanı verdiyini bilmədən onları araşdırmaq və "oxumaq" mümkün deyildir. Aparılan araşdırmalar göstərir ki, Gəmiqaya təsvirləri təsadüfən ortaya çıxmamış, o, qədim dövrdən bu ərazidə yaşayan tayfaların iqtisadi-sosial inkişafı ilə bağlı olmuş, onların dünya baxışını, inanclarını əks etdirmişdir [7].

Azərbaycanın qədim tayfalarının dini-ideoloji baxışlarının öyrənilməsində Qafqaz Albaniyasının incəsənətini əhatə edən antropomorf heykəllərin də böyük rolu vardır. Qeyd edək ki, monumental heykəltəraşlıq Qafqaz Albaniyası plastik sənətinin maraqlı növlərindən biri olmuşdur. Gil və tunc heykəlciklər, daş heykəllər və s. bu qrupa daxildir [8].

Etnoarxeoloji tədqiqatlar sübut edir ki, başı və ətrafları olmayan gil heykəlciklər hər hansı hadisə və ya tədbirin uğurla başa çatması ilə əlaqədar keçirilən mərasimdən sonra məhv edilir və qəbirlərdə basdırılırdı. Çox güman ki, ecazkar varlıqların surətlərinin rəmzi olan bu sındırılmış heykəlciklər şər qüvvələrin bədnəzərlərini özlərinə cəlb etmək üçün məhv edilirdi. Qəbirlərdə gil heykəllərin dəfn edilməsinə tunc dövründə geniş rast gəlinir. Zəyəmçayın yuxarı axarı hövzəsində XIX əsrin sonlarında qazıntılar aparan V.Belk bu tip qəbirlərə ən çox "Cənnət qalası"nda rast gəldiyini yazır. 4№-li qəbirdə o, 15 meyitin basdırıldığını və bunların hamısının döyüşçü olmasını qeyd edir. V.Belkin qeydlərindən məlum olur ki, bu qəbirdən həm də hündürlüyü təxminən 1 metr olan gildən hazırlanmış insan heykəli tapılmışdır [9, 62-63]. Asiya və Avropanın qədim əkinçi tayfalarında belə heykəllər ilahə və məhsuldarlıq rəmzi hesab olunurdu [10, 184].

E.ə. IV-III əsrlərdən başlayaraq Qafqaz Albaniyasının dekorativ-tətbiqi sənətində məişət süjetlərinə və mifoloji süjetlərə dair səhnələrin batıq xətlərlə təsvir edildiyi daş heykəllər xüsusi yer tutur. Alban incəsənətinin bu abidələri olduqca çoxdur: təkcə İsmayıllı rayonunun ərazisində, Mollaisaqlı-Hacıhatəmli yaylasında arxeoloji qazıntılar zamanı 60-dan artıq heykəlcik aşkara çıxarılmışdır. Bu kiçik formalı heykəllər Mingəçevir, Qəbələ və Şamaxı qazıntıları zamanı da tapılmışdır. Albaniyada kiçik gil heykələrin hazırlanması ilə xüsusi sənət növü –koroplastika məşğul olurdu. Şərq incəsənəti üçün səciyyəvi olan üslubda hazırlanan bu heykəllər öz arxaik formalarını hifz edib saxlamışlardır. Terrakotlar ən qədim zamanlardan məhsuldarlıq rəmzi sayılan ana ilahəsinin təsviri ilə bağlı olmuşdur [11]. Albaniya koroplastikasının müəyyən hissəsi Azərbaycanın qədim əhalisinin etiqadlarını və təsəvvürlərini əks etdirən, qonşu ölkələrin incəsənəti ilə ümumi cəhətləri olan zoomorf təsvirlərlə təmsil edilmişdir. Arxaik cizgiləri saxlayan terrakot heykəlciklər antik dövrdə Ön Asiya və Yaxın Şərq incəsənətinin lokal məktəblərindən birini təmsil edir.

Qafqaz Albaniyasının monumental heykəltəraşlığı arxeoloji tədqiqatların gedişində əsasən Şirvanda və Qarabağda üzə çıxarılmış antropomorf daş heykəllərlə təmsil olunmuşdur. Bu heykəllər Azərbaycanın antik dövrə aid dini-ideoloji görüşlərinin öyrənilməsində əhəmiyyətli mənbə rolunu oynayırlar [12]. Heykəllərin böyük bir qismi əhəngdaşından

hazırlanmışdır və adamı boyaboy və ya hətta daha iri ölçüdə təqdim edir. Heykəllərin başları bir qayda olaraq qopuqdur. Sağ əl sol döşə, sol əl qarın üstünə və ya sağ əldən aşağıya qoyulmuşdur. Şamaxı rayonunun Çıraqlı kəndində tapılmış daş heykəllər qrupunda üzün cizgiləri (gözlər, burun, qulaqlar) aydın təsvir olunmuş, sakitlik, müdriklik, mərdlik kimi xassələrin real nümunələrlə ifadə edilməsinə cəhd göstərilmişdir. Daş heykəllər əsasən yerli bütpərəst əhalinin səcdə etdiyi kişi bütləri idi. Bu ənənə antik dövrdən ta ilk orta əsrlərə qədər yaşamışdır. İlk orta əsrlərdə isə islamın yayılması ilə tamamilə aradan çıxır.

Qeyd edək ki, daşdan yalnız monumental heykəllər deyil, həm də üzərində müxtəlif təsvirlər həkk edilən kiçik fiqurlar da yonulurdu. Bu baxımdan Şamaxıda tapılmış ağ əhəngdaşından hazırlanan, qədəhə oxşayan zəngşəkilli bir qab Alban tətbiqi sənətinin maraqlı nümunələrindən sayılır. Qabın içi boş olan gövdəsi bayır tərəfdən çökək ornamentlə örtülmüş, çəpəki və sınıq xətlərlə haşiyələnmiş kompozisiyanın mərkəzində isə bir- birinin dalınca sıra ilə gedən beş heyvan - təkə, donuz, bəbir və aydın nəzərə çarpan iki maral fiquru yerləşdirilmişdir. Qədəhin yuxarısı üç qabarıq başcıqla - kişi, qadın və it başcıqları ilə qurtarır. İsmayıllı rayonu ərazisində Uzunboylar məskənində də üzərində zoomorf təsvirlər olan daş piyalə tapılmışdır. Həm də buradakı maral təsvirləri, ornament motivləri qədim Şamaxıda tapılmış qədəhdə olan maral təsvirlərinə və ornament motivlərinə bənzəyir. Antik dövrün tədqiqatçıları sübut etmişdir ki, plastik materialda, torevtika əsərlərində, qliptikada çoxsaylı maral təsvirlərinin motivi məhz alban dekorativ tətbiqi sənəti üçün səciyyəvidir [11].

E.ə. IV-III əsrlərdə geniş yayılmış olan bədii keramikaya öz mətbəx və məişət əhəmiyyətini də saxlayan müxtəlif zoomorf və antropomorf qablar daxildir. Ümumiyyətlə, mücərrəd ornamentlə bəzədilmiş qablara xüsusi düzəlmiş qulpların, qapaqların və digər lazımlı ünsürlərin köməyi ilə zoomorf və ya antropomorf görkəm verilir. Bir çox saxsı qablarda heyvanların, quşların, insanın yapma və basma ornamentlə, boya ilə yaradılmış sxematik təsvirləri vardır ki, bunlar alban incəsənəti haqqında müəyyən təsəvvür yaradır. Bununla əlaqədar olaraq İsmayıllı rayonunun Hacıhatəmli yaşayış yerindən tapılmış dabanlı oturacağı olan boz rəngli vazanı xüsusilə qeyd etmək lazımdır. Gövdəsi yapma naxışla bəzədilmiş qabın kiçik şaquli qulpları vardır, ağzı dəyirmidir. Şaquli qulpların hər iki tərəfinə çiçək şəklində kiçik naxışlar yapışdırılmış, qulpun dibində də buna bənzər yapma naxış vardır. Yapma naxışların köməyi ilə qaşlar, gözlər, qulaqlar və üzün hər iki tərəfindən sallanan iki hörük, batıq cızıqların köməyi ilə kirpiklər bildirilmişdir. Dəqiq ifadə etsək, qadın çöhrəsinin bütün incəlikləri burada ifadə edilmişdir. Buna oxşar antropomorf gil qablar qədim Şamaxı qazıntılarından məlumdur. Qabın gövdəsinin yuxarı hissəsi adam başı formasında hazırlanmışdır. Qulaqlar, burun, gözlər və bel çox dəqiq cizgilərlə verilmişdir. Bu keramikaya bənzəyən, maral, keçi, öküz, xoruz, göyərçin, tısbağa və s. formasında hazırlanan, qədim Azərbaycan əhalisinin incəsənəti üçün səciyyəvi olan antropomorf gil qablar Türkiyə ərazisindəki arxeoloji abidələrdən də məlumdur [5, 89].

Azərbaycanın qədim əhalisinin incəsənət sahələrindən biri də daşişləmə sənətidir. Məmurlar, hakimlər, yüksək vəzifəli şəxslər, əyanlar və kahinlər üzərində təsvirlər və yazılar olan müxtəlif qiymətli və yarıqiymətli daşlardan möhür kimi istifadə edirdilər [8]. Arxeoloji qazıntılar zamanı Mingəçevirdə tapılan möhürlərin üzərində uzanmış qoyunlar, Şamaxıda tapılan möhürlərin üzərində kişi büstü təsvir edilmişdir. Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar xeyli möhür şəkli (bullalar) aşkar etmişdir ki, bu möhürlərdə insan, müxtəlif heyvanlar (zebu, maral, qoyun, it, şir və s.) quşlar (xoruz, qartal, göyərçin), əqrəb, fantastik varlıqlar (qanadlı öküz, peqas-qanadlı at və başqa əfsanəvi məxluqlar), müxtəlif bitkilər, atəşpərəstlik mehrabları, göy cisimləri, müxtəlif işarələr və s. təsvir edilmişdir. Bu rəsmlərin əksəriyyəti rəmzi məna daşıyırdı və dini etiqadla bağlı idi.

Arxeoloji abidələrdən tapılan çoxsaylı artefaktlar təsdiq edir ki, daş və metal üzərin-

də oyma sənətinin, zərgərlik və şüşə emalının yüksək keyfiyyətli məhsullarını hazırlayan sənətkarlıq mərkəzləri və bütöv məktəblər mövcud olmuşdur [3; 9]. Şamaxıda, eramızın III əsrinə aid daş qutu qəbirndə aşkar edilmiş zərli gümüş sini tipli qab yüksək ustalıq və bədii zövq nümunəsidir. Sininin içərisi baş-dan-başa ov səhnəsi ilə örtülmüşdür: dördnala çapan atın üstündəki süvari geri çevrilərək oxunu dağ keçisinə doğru tuşlamışdır. Mürək-kəb ov səhnəsi çox dəqiq cizgilərlə verilmiş və texniki baxımdan nadir sənət nümunəsi olan qab yerli ustaların yartdığı mükəmməl əsərdir.

V.Q.Lukonin və Q.O.Qoşqarlının fikrincə Şamaxıdan tapılmış qab üzərində I Şapurun oğlanlarından biri, o dövrdə (III əsrin 70-90-cı illərində) imperiyanın şimal vilayətlərinin, o cümlədən Adurbadaqanın hakimi, gələcək şahənşah Nerses təsvir edilmişdir. Güman etmək olar ki, bu nadir qab məhz Azərbaycanın torevtika emalatxanalarından birində hazırlanmışdır [11].

Azərbaycanın şimal vilayətlərindən, eləcə də müasir Cənubi Dağıstandan tapılan, adətən VI-VIII əsrlərə aid edilən tunc qablar, kuzələr və buxurdanlar da nadir sənət əsərlərindən hesab olunur. Bu sənət nümunələri arasında, hazırda Sankt-Peterburqdakı Dövlət Ermitajında saxlanılan, ötən əsrin əvvəllərində Naxçıvanda qədim əntiq əşyalar alverçisindən satın alınan tunc buxurdan xüsusi maraq doğurur. 35,6 sm hündürlükdə, tuncdan tökülmüş süvari heykəlciyi formasında olan bu buxurdan alimlərin ümumi rəyinə görə, yerli sənətkar tərəfindən düzəldilmişdir. Albaniya tarixinin ilk geniş tədqiqatçılarından olan K.V.Trever burada alban hokmdarı Cavanşirin təsvir olunduğunu güman edir [14, 23].

Bütün bu fikirləri ümumiləşdirərək qeyd etmək lazımdır ki, antropomorf obrazlar Azərbaycanın qədim əkinçi-maldar sakinlərinin təsviri sənət, metalişləmə, sümükişləmə, ağacişləmə, dulusçuluq və digər sənət sahələri sahəsində yüksək inkişaf səviyyəsini öyrənməklə yanaşı eyni zamanda bu sakinlərin dini dünyagörüşünün və mənəvi mədəniyyətinin öyrənilməsində mənbə rolunu oynayırlar.

## ƏDƏBİYYAT

1. Асланов Г. Археологические исследования на Апшероне в 1976 г. Баку, 1976
2. Антонова Е.В. Обряды и верования первобытных земледельцев Востока. М., 1990
3. Ансимов А. Этапы развития первобытной религии. М.,-Л., 1976
4. Мовсумова Л. Проблема женщины в духовной культуре Азербайджана. Баку, 1996
5. Вардиман Э. Женщина в древнем мире. М., 1990
6. Гусейнов М. Древний палеолит Азербайджана. Баку, 1985
7. Müseyibli N.Ə. Gəmiqaya. Bakı, 2004
8. Косвен М. Очерки развития первобытной культуры. М., 1957
9. Xəlilov C.Ə. Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri. Bakı, 1959
10. Чайлд Г.В. Прогресс и археология. М., 1949
11. Кошкарлы К.О. Античная и раннесредневековая торевтика из Азербайджана. Баку, 1985
12. Тайлор Ч. Первобытная культура. М., 1989
13. Quliyev H.A., Bəxtiyarov A.S. Azərbaycanda qədim dini ayinlər və onların məişətdə qalıqları. Bakı, 1968
14. Тревер К.В. Новые сасанидские блюда Эрмитажа. Л., 1937

***Гюльпери Рамин кызы Ахмедова***

## АНТРОПОМОРФНЫЕ ОБРАЗЫ – КАК ИСТОЧНИК РЕЛИГИОЗНЫХ ВОЗЗРЕНИЙ ДРЕВНИХ ЖИТЕЛЕЙ АЗЕРБАЙДЖАНА

### *РЕЗЮМЕ*

Во время археологических раскопок были получены уникальные антропоморфные произведения, дающие богатую информацию о культуре, искусстве, мировоззрении древних племен, занимающихся земледелием и скотоводством на тер-

ритории Азербайджана. Мастерство древних жителей Азербайджана в области антропоморфных фигур по своему происхождению связано со многими историческими и художественно творческими традициями, корни которых восходят к Гобустанским изображениям, относящимся к периоду мезолит.

Сравнительный анализ аналогичных материалов, найденных с территорий стран Ближнего Востока доказывают, что в периоды энеолита, бронзы, античности и средних веков население Азербайджана было знакомо с искусством древнего Востока. Представления, связанные с антропоморфными образами нашего древнего искусства вытекают из художественного мышления, творческих тенденций и религиозных воззрений тюркских народов.

***Gulperi Ramin gizi Akhmedova***

## ANTHROPOMORPHİC İMAGES - AS A SOURCE RELİGİOUS BELİEFS OF THE ANCİENT İNHABİTANTS AZERBAIJAN

### *SUMMARY*

During archaeological excavations were obtained unique anthropomorphic works, giving a wealth of information about the culture, art and worldview of the ancient tribes engaged in farming and animal husbandry in the territory of Azerbaijan. Mastery of the ancient inhabitants of Azerbaijan in the field of anthropomorphic figures in its origin is associated with many historical and artistic creative tradition whose roots go back to Gobustan images relating to the Mesolithic period.

A comparative analysis of similar materials found in the territories of the Middle East argue that in times of Chalcolithic, Bronze Age, antiquity and the Middle Ages, the population of Azerbaijan was familiar with the art of the ancient East. Representations associated with anthropomorphic image of our ancient art derived from artistic thinking, creative trends and religious beliefs of the Turkish peoples.